# 6 APREL

*Beynəlxalq İdman Günüdür*

**Azərbaycanda idmanın inkişafı naminə həyata keçirilən tədbirlər dövlətin yürütdüyü daxili siyasətin əsas istiqamətlərindəndir. Bu sahə bir çox cəhətdən xüsusi əhəmiyyət kəsb edir. Əvvəla, məlum olduğu kimi, idman yeni sağlam nəslin yetişdirilməsində müstəsna rol oynayır. Eyni zamanda, idmanın gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında böyük rolu var. Bununla yanaşı, idman ölkənin dünyada tanıdılmasına, dövlətin beynəlxalq aləmdə nüfuzunun artmasına təkan verir. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi: "İdman, bədən tərbiyəsi xalqın sağlamlığı ilə bağlı olan mühüm sosial sahədir. Azərbaycan bayrağı dünyada, demək olar ki, iki dəfə qaldırılır. Bu, bir Azərbaycanın dövlət başçısı hər hansı ölkəyə gələrkən və bir də idmançılarımız beynəlxalq yarışlarda çempion adını qazanarkən baş verir. Azərbaycan himni səsləndirilir, dövlət bayrağı qaldırılır".**

# Ölkəmizdə idmanın inkişafı dövlət siyasətində mühüm yer tutur

Bu gün dövlət başçısı İlham Əliyevin uğurla davam etdirdiyi ulu öndərin əsasını qoyduğu inkişaf strategiyasının məntiqi nəticəsi olaraq ölkəmiz regionun lider dövlətinə çevrilmişdir. Dövlətimizin iqtisadi qüdrətinin ildən-ilə artması isə idmanın da tərəqqisinə müsbət təsir göstərmişdir.

İdman ölkəsi kimi tanınan Azərbaycanın nailiyyətləri beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Ölkəmizi ləyaqətlə təmsil edərək böyük uğurlara imza atan idmançılarımız Azərbaycan xalqının sağlam mənəvi-fiziki və əqli təfəkkürünü ardıcıl qələbələrlə dünyaya sübut edir. Bu, Azərbaycan dövlətinin mütərəqqi strateji siyasi xəttinin əsasını təşkil edən, xalqın bütün sahələrdəki potensial imkanlarının üzə çıxarılmasına yönəlmiş siyasətinin bariz nümunəsidir.




Qeyd edək ki, dövlət başçısı hələ prezident olmadığı vaxtlarda belə, Milli Olimpiya Komitəsinin prezidenti kimi daima idmana diqqət və qayğı ilə yanaşmışdı. Bunun nəticəsidir ki, idmançılarımız respublikamızı dünya arenalarında layiqincə təmsil edirlər. Vurğulamaq yerinə düşər ki, Azərbaycanda güləşin öz ənənələri var və gənc nəsil bu ənənələri əzmlə davam etdirir. Azərbaycan güləşi daim özünün tarixi ənənəsini qoruyub saxlayıb. Ölkə pəhləvanları güləşin bütün növlərində ölkə, Avropa, dünya birinciliklərində, Olimpiya Oyunlarında və digər beynəlxalq yarışlarda çıxış edib, öz ustalıqları ilə idman həvəskarlarının rəğbətini qazanıblar. Bu günlərdə Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatında da gənc güləşçilərimiz ölkəmizi layiqincə təmsil edərək böyük uğura imza atıblar. Belə ki, yarışda Azərbaycan idmançıları 7-si qızıl olmaqla 16 medal qazanıblar. Sevindirici haldır ki, komanda hesabında güləşçilərimiz birinci yerə layiq görülmüşdür. Bu da Azərbaycan güləşi tarixində rekord nəticədir. 34 Avropa ölkəsi arasında Azərbaycanın birinci olması onu gösərir ki, nəsildən-nəslə keçən bu təcrübə, bilik, səriştə Azərbaycanı bundan sonra da dünya miqyasında aparıcı güləş ölkələrindən birinə çevirəcəkdir.

Martın 17-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 23 yaşadək idmançıların Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul edərkən çıxışında bildirmişdir: "Bu, bir daha onu göstərir ki, Azərbaycanda idman uğurla inkişaf edir, Azərbaycan idman dövlətidir və həm böyüklər, həm gənclər arasında keçirilmiş beynəlxalq yarışlarda bizim idmançılarımız öz gücünü, dövlətimizin qüdrətini nümayiş etdirirlər". Son illər idmançılarımızın uğurları və mövcud problemlər barədə danışan dövlət başçısı bir çox məsələlərə aydınlıq gətirib, güləşin milli idman növü kimi, Azərbaycanda idmanın digər növləri arasında xüsusi yerə malik olduğunu, bütün dövrlərdə, həm sovet və xüsusilə müstəqillik dövründə güclü güləşçilərin yetişdiyini diqqətə çatdırıb. Görüş çərçivəsində dövlət başçısı xalqımızın və gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsində idman amilinin çox böyük rol oynadığını xüsusilə vurğulayıb.

Ölkəmizdə dövlət gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Qazanılan uğurlar bir daha onu sübut edir ki, hər bir gənc ölkəmizin qarşısında duran böyük məqsədi və məsuliyyəti yaxşı dərk edir.

Son illərdə ölkəmizdə 50-dən çox müasir Olimpiya mərkəzlərinin inşa olunması idmanın kütləviliyini artırıb. Cənab Prezident ölkəmizdə idmanın kütləviliyini təmin etmək və bütün bölgələrdə mövcud infrastrukturdan istifadə etməyin prioritet vəzifələrdən biri olduğunu bildirib. "Biz ləyaqətli xalqı və böyük hörmətə layiq olan ölkəni təmsil edirik" - deyən dövlət başçısı idmançılarımızın bundan sonra həmişə müzəffər ölkəni təmsil edəcəklərini qürurla vurğulayıb: "Bizim Qələbəmiz əbədidir, biz Qarabağı düşməndən azad edən xalqıq və o torpaqlarda həyat yaradan, həyat quran xalqıq".

Qürurverici haldır ki, artıq işğaldan azad olunan torpaqlarımızda da idmanın inkişafı diqqət mərkəzindədir. Stadionlar, idman kompleksləri və digər idman qurğuları tikiləcək, bu da təbii ki, idmanın inkişafına təkan verəcək. Bu, azad edilmiş bütün şəhərlərin Baş planlarında da öz əksini tapır.

Bu gün Azərbaycan dünyada elə ölkələrdəndir ki, bütün sahələrdə əldə olunan nailiyyətlər konsepsiyaya əsaslanır. O cümlədən idman sahəsindəki qələbələr, nəticələr də məhz konsepsiyaların, uzun dövr üçün hazırlanan proqramların nəticəsində əldə olunub. Prezidentimizin də qeyd etdiyi kimi, idmanın inkişafı dövlət siyasətidir və bu inkişafı müəyyən edən bütün amillər Azərbaycanda var.

Azərbaycan idmanının yüksəlişi həm də dövlətimizin yüksəlişi deməkdir. Azərbaycan idman ölkəsi statusunu zirvələrdə qoruyub saxlayır. Bu da Prezident İlham Əliyevin idmanın inkişafına və yetişməkdə olan gənc nəslə göstərdiyi xüsusi diqqət və qayğının real və əyani təcəssümüdür.

**Nurəngiz ADİLQIZI,**
**"Respublika".**

Respublika .- 2022.- 6 aprel.- S.5.